*Abışov Vaqif Şirin oğlu,*
*tarix elmləri doktoru, dosent,*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*Email: vaqif.abishov1955@gmail.com*

# QARABAĞIN ARXEOLOJİ ABİDƏLƏRİNƏ QARŞI ERMƏNİ VANDALİZMİ (1988-2020-ci illər)

1988-1994-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsi nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal olunmuşdur. Həmin işğal nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilmiş, yaralanmış və əsir götürülmüşdür. Eyni zamanda mövcud olan dövlət mülkiyyətinə, şəxsi mülklərə, o cümlədən tarixi-mədəni abidələrə külli miqdarda ziyan vurulmuşdur.

28 ildən çox işğal altında qalmış ərazilərdə tarixi və mədəni abidələrə qarşı erməni vandalizm həyata keçirilmişdir. Belə ki, Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun ərazisində yerləşən tarixi və mədəniyyət abidələrinin bəziləri dağıdılaraq iz-

ləri itirilmiş, bəzi abidələrin isə erməni abidələri adı altında saxtalaşdırılmışdır. Bu faktlar beynəlxalq təşkilatlara məlum olmasına baxmayaraq, hələ indiyə kimi işğalçı Ermənistan Respublikasına qarşı elə bir ciddi tədbir görülməmişdir.

Məlumdur ki, BMT Təhlükəsizlik Şurası işğal edilmiş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü il aprelin 30-da 822 saylı, iyulun 29-da 853 saylı**,** oktyabrın 14-də 874 saylı, noyabrın 12-də 884 saylı qətnamələr qəbul etmişdir. Lakin Ermənistan Respublikası həmin rəsmi qərarları 30 ilə qədər yerinə yetirməmişdir.

ATƏT-in işğal olunmuş ərazilərdəki vəziyyəti araşdıran missiyasının hesabatından, habelə digər mənbələrdən toplanan məlumatlara görə, ermənilər Azərbaycan Respublikasnın işğal olunmuş ərazilərində tarixi və mədəni abidələrin böyük bir hissəsinin izini itirmişdir. Bütün bunlar 1954-cü ildə qəbul olunmuş Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, həmçinin "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir. Bu konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və rəqib tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunması, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin qarşısında vəzifə kimi qoyur. Həmçinin işğal ərazilərində tarix-mədəniyyət abidələrinin dağıdılması və saxtalaşdırılması YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" konvensiyasının pozulmasıdır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi işğal altındakı ərazilərdə tarix-mədəniyyət abidələrinin dağıdılmasına dair hesabat hazırlayaraq YUNESKO-ya və başqa beynəlxalq təşkilatlara təpdim etmişdir.

Dağlıq Qarabağda məhv edilən abidələrdən 367-si tarixi abidələr, 67-si məscidlər, 144-ü məbəd, 192-i isə ziyarətgahlardır. Bunlar erməni işğalçıları tərəfindən dağıdılıb, məhv edilib və Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbə vurulub.

Qarabağ bölgəsində bir neçə nəsil Azərbaycan arxeoloqlarının səyi ilə Quruçay mədəniyyəti (paleolit dövrü), Leylatəpə mədəniyyəti (eneolit dövrü), Kür-Araz mədəniyyəti (ilk tunc dövrü), Üzərlik mədəniyyəti (orta tunc dövrü), Xocalı-Gədəbəy mədəniyyəti (son tunc və ilk dəmir dövrü), habelə antik və orta əsrlərə aid yüzlərlə tarixi abidə tədqiq olunaraq, dünya elmi ictimaiyyətinə çatdırılmışdır. Bütün bu abidələrin məhz Azərbaycan xalqının tarixi keçmişinə məxsus olması dünya arxeologiyasına çoxdan məlumdur və həmin abidələrin erməni tarixinə heç bir aidiyyəti yoxdur.

İşğala qədər isə Azərbaycanın Qarabağ bölgəsində Şuşa arxeoloji abidələri, Xocavənd rayonunda olan Azıx mağara düşərgəsini (Paleolit dövrü), Tağlar mağara düşərgəsini (Paleolit dövrü), Nərgiztəpə yaşayış yeri (ilk və orta tunc dövrü), Xoca-vənd rayonunda, Nekropol (son tunc və ilk dəmir dövrü) – Dolanlar kəndi, Ağdam-Ağcabədi yolunda Üzərliktəpə yaşayış yerini (Tunc dövrü), Xocalı şəhərindəki Xocalı kurqanlarını (tunc-ilk dəmir dövrü), Ağdam rayonunda Calağantəpə, Cəbrayıl rayonunun Xubyarlı kəndində yerləşən Tunc dövrünə aid Niftalı kurqanları və s. qeyd etmək olar.

Ümumilikdə isə, Azərbaycan Respublikasının işğal olunmuş ərazisində tarixi və mədəni abidələrə qarşı erməni vandalizmi nəticəsində Ağdam rayonunun arxeoloji abidələri, Şuşa rayonu üzrə 5 arxeoloji abidə (buraya kurqan, daş qutu qəbirlər, Şuşa

mağara düşərgəsi), Xocalı və Cəbrayılda olan tunc və dəmir dövrünə aid kurqanlar və s. dağıdılmışdır.

İşğal dövründə ermənilər, həmçinin işğal altındakı Xocavənd rayonu ərazisində yerləşən, ən qədim insan məskənlərindən biri olaraq tanınan Azıx mağarasında, Füzuli və Ağdərə rayonları ərazisində də arxeoloji qazıntılar aparmışdılar. Ermənilər Azıx mağarasında arxeoloji qazıntılara 2001-ci ildən başlamışdır. Lakin müzəffər Azərbaycan ordusu düşməni torpaqlarımızdan qovduqdan sonra onların bəd niyyətləri alt-üst oldu. Məlumdur ki, bu mağaranı ilk dəfə 1960-cı illərdə Azərbaycanın tanınmış arxeoloqu Məmmədəli Hüseynov tərəfindən tədqiqat aparılıb və orada qədim insan sümükləri, ocaq izləri, eləcə də başqa maddi-mədəni nümunələr tapılmışdır. 1968-ci ildə mağarada tapılmış insanın alt çənə sümüyü dünyada indiyədək tapılmış ən qədim insan sümüklərindən hesab edilir.

Azərbaycanın işğal olunmuş ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin sədri, Qarabağın tarixi və mədəni abidələrinin öyrənilməsində xüsusi xidmətləri olan, tədqiqatçı Faiq İsmayılov tərəfindən hazırlanan və 2014-cü ildə çap olunan "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi" adlı kitabda qeyd olunur ki, Azərbaycan ərazisindəki tarix və mədəniyyət abidələri Tarix, İncəsənət, Memarlıq, Arxeoloji abidələr kimi qruplara bölünür. Bu qruplar üzrə abidələrin 903-ü Dövlət qeydiyyatında olmaqla Azərbaycanın bizə məlum olan 2550 adda tarix və mədəniyyət abidəsi ermənilərin işğalı altındadır. Bu abidələrdən 609-u yerli, 285-i ölkə, 13 ədədi Beynəlxalq əhəmiyyətli abidələr, 1647 abidə isə hələlik dövlət qeydiyyatında olmayan abidələrdir.

Təkcə 2006-cı ildə ermənilər tərəfindən Şuşa şəhəri ətrafında 500-dən çox abidə "erməni abidəsi" kimi qeydiyyata alınmışdır.

Yuxarıda qeyd olunduğu kimi, ermənilər işğal edilmiş ərazilərdə qalan tarixi abidələri dağıtmaqla və saxtalaşdırmaqla kifayətlənməyib, bu ərazilərdə arxeoloji qazıntılar da aparmışdılar. Onların əsas məqsədi, ermənilərin Qarabağa 19-cu əsrin əvvəllərindən etibarən köçürüldüyünə dair təkzibolunmaz tarixi faktları ört-basdır etmək, ermənilərin guya min illər boyu bu torpaqlarda yaşadıqlarına dair saxta tarixi dəlillər ortaya çıxarmaq idi.

İşğal olunmuş ərazilərimizdə ermənilər arxeoloji qazıntıları, əsasən 2000-ci illərin əvvəllərindən başlamış və 2020-ci ilin sentyabrınadək davam etdirmişdilər. Onların qarşısına qoyulmuş əsas vəzifələrindən biri də mifik "Böyük Ermənistan" dövlətinin paytaxtı "Tiqranakert"in izlərini tapmaq idi. 2006-cı ilin avqust ayında Ermənistan Ekspedisiya Arxeologiya və Etnoqrafiya İnstitutu daha bir qrup əməkdaşını Şahbulaq yaylağına ezam edilmişdir. Qısa müddətdən sonra arxeoloqlar uydurma "Tiq-ranakert" şəhərinin qalıqlarını aşkar etdikləri barədə xəbər yaymışdılar. Lakin çox keçmədən onların bu "kəşfi" biabırçı faktla üzləşdi və məlum olub ki, ekspedisiya üzv-ləri qazdıqları çalalara müasir texnikanın köməyi ilə yonulmuş mişar daşları düzüblər və onları "tarixi dəlillər" kimi təqdim ediblər. Qazıntılarda iştirak edən xarici ölkə arxeoloqları bu biabırçı faktdan sonra ekspedisiyanı tərk etmişdilər.

Buna baxmayaraq erməni arxeoloqlarının Şahbulaq yaylaqlarında, tikintisi 1751-1752-ci illərdə başa çatan və Qarabağ xanlarının iqamətgahı olan Qıfıl xan sarayı kompleksi ərazisində qazıntı işlərini 2020-ci ilin sentyabrına kimi davam etdirmişdilər.

Azərbaycan Mədəniyyət Nazirliyinin rəsmi arayışına görə hərbi təcavüz nəticəsində işğal edilmiş ərazilərdə ilk insan məskənlərindən olmuş Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları işğal dönəmində hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılmışdır.

Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində mədəni irsi məhv etməyə yönələn siyasətinin bir hissəsi də bu ərazilərdə qalan muzeylərdə saxlanılan misilsiz tarixi eksponatları, qiymətli incəsənət və mədəniyyət nümunələrini talan edilməsidir. Onların böyük bir hissəsi vaxtı ilə arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəni əşyalar olmuşdur.

Azərbaycan Mədəniyyət Nazirliyinin statistikasına görə, işğal olunmuş ərazilərində 40 mindən çox eksponata malik olan 22 muzey qalıb. Bu muzeylərdən Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, vaxtı ilə arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəni əşyalar, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli eksponatlar talan edilib.

Xocalı kurqanlar abidəsi Xocalı yaxınlığındakı Tunc dövrünə aid qəbiristanlıqdan ibarətdir. Xocalı-Gədəbəy mədəniyyətinin ən yaxşı öyrənilmiş abidələrindən biridir. Burada çox da böyük olmayan kurqanlar və kromlexlər aşkar olunmuşdur. Bu kurqanlarda tək və kollektiv dəfnlər həyata keçirildiyi müəyyən edilmişdir. Bəzi qəbrlərdə aparılan araşdırmalar əsasən, burda yaşayan insanların kremasiya (qədim insanların təsəvvürlərinə görə, dəfn mərasimi ölənin o biri dünyaya keçməsini hazırlayan keçid üsulu. Kremasiya, yəni insanın meyitinin yandırılması hələ qədim dövrlərdən mövcud imiş) adətinə malik olduqlarını qeyd etmək olar. Abidələrdən Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan keramika, silah və bəzək əşyaları aşkar edilmişdir. Xocalı kurqanlarından tapılan təsərrüfat küplərinin birinin qulpunda buğda təsviri vardır.

Xocalıda tədqiq edilən 11 №-li kurqan, xüsusilə əhəmiyyətli nəticələr vermişdir. Bu kurqandan Assuriya padşahı Adadnirarinin adı yazılmış muncuq tapılmışdır. İ.İ. Meşaninov bu muncuğu e.ə. VIII əsrə aid etmişdir. Lakin sonrakı tədqiqatlarda alimlər bu muncuğu I Adadnirarinin yaşadığı dövrə, yəni təqribən e.ə. IX əsrin sonu və VIII əsrin əvvəlinə aid edirlər.

Xocalıda və başqa ərazilərdə ermənilər tərəfindən məhv edilən maddi-mədəniyyət abidələrinin bir hissəsi aşağıda qeyd olunmuşdur: daş qutu nekropolu (Yunan dilindən tərcümədə "ölü şəhər" mənasını verən bu söz arxeoloji qazıntılar zamanı tapılan məzarlıqlara verilən addır. Arxeoloji şəhərlərdə məzarlıqların və toplu məzar yerlərinin olduğu bölgəyə verilən addır) - tunc dövrü (Xocalı şəhəri Əsgəran dağı), nekropol - ilk tunc və orta tunc dövrü (Xankəndidən cənubda), Xocalı kurqanları - ilk tunc və dəmir dövrü, küp qəbirləri nekropolu - ilk orta əsrlər (Xankəndinin ərazisində), kurqan - dəmir dövrü (Xankəndi yaxınlığında), Xankəndi kurqanları - tunc dövrü (Xankəndidən şimalda), Xaçınçay nekropolu - ilk tunc və orta tunc dövrü (Seyidşən kəndindən şimal-şərqdə), küp qəbirləri nekropolu - tunc dövrü (Armudlu kəndindən 2 km İlis kəndinə tərəf), kurqan - tunc dövrü (Armudlu kəndindən 15 km aralı, İlis çayının sahilində), daş qutu nekropolu - dəmir dövrü (Armudlu kəndinin qəbiristanlığı yaxınlığında), köhnə qəbiristanlıq - tunc dövrü (Çanaqçı kəndi), daş qutu nekropolu - dəmir dövrü və s.

Şuşa mağara düşərgəsi - Şuşadakı tarixi abidələr sırasında özünə layiqli yer alan

Daş dövrünə aid Şuşa mağarası şəhərin yaxınlığında, I Zarıslı (Daşaltı) çayının dərəsində dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşir. Daş dövründə yaşamış insanların məskəni, Şuşa şəhərindən cənubda, Daşaltı çayının sol sahilində yerləşir.

1971-ci ilin iyul ayında M.M.Hüseynovun rəhbərliyi altında Mil-Qarabağ arxeoloji ekspedisiyası Qarabağın dağlıq ərazilərində paleolit düşərgələrini aşkar etmək məqsədilə kəşfiyyat işləri aparmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bir milyona yaxın insanın öz evlərindən qaçqın düşməsinə, çoxsaylı şəhərlərin, qəsəbələrin, kəndlərin tamamilə dağıdılmasına, milyard dollarlıq maddi ziyana səbəb olmaqla yanaşı, Dağlıq Qarabağda və ona bitişik ərazilərdə azərbaycanlılara aid mədəni irsin planlaşdırılmış şəkildə məhvinə səbəb olmuşdur.

Talan və məhv edilmiş arxeoloji abidələr nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir.

Lakin Azərbaycan Respublikası isə öz milli ordusunun və xalq-hakimiyyət birliyi güçünün sayəsində erməni işğalçıları torpaqlarımızdan qovuldular.

44 günlük Zəfər yürüşü (27 sentyabr-10 noyabr 2020) nəticəsində Qarabağın işğal olunmuş əraziləri azad oldu və üç rəngli bayrağımız Şuşa şəhərinin ən uca yerində yenidən dalğalanmağa başladı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan arxeologiyası, Altı cilddə, I cild. Bakı, "Şərq-Qərb", 2008, 448 s.

2.https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_ma%C4%9Fara_d%C3%BC%C5%9F%C9%99rg%C9%99si

3. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi. Baki: 2014, 120 s. S.22.

4. Xocavənd rayonunun vandalizmə məruz qalmış abidələri". www.dqdk.gov.az.